# "Tullantıları tinglərə dəyiş" aksiyası keçirilib



Ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sumqayıtlıların daim diqqət mərkəzindədir. Kimya sənayesi statusu daşıyan Sumqayıtda bu istiqamətdə müxtəlif layihələr həyata keçirilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Sumqayıt Şəhər İcra Hakimiyyətinin və "Araz" supermarketlər şəbəkəsinin dəstəyi ilə şəhərdə növbəti dəfə baş tutan aksiya "Tullantıları tinglərə dəyiş" adlanırdı.

Sumqayıt şəhəri "Araz" superstore qarşısında keçirilən aksiya zamanı vətəndaşlar ümumi tutumu 253 litr olan plastik, 536 litr tutumu olan şüşə butulka və 43 ədəd işlənmiş batareya təhvil verərək əvəzində ərik, nar və sərv tingləri əldə ediblər. İştirakçılar həmin tingləri şəhərin ərazisində müxtəlif yerlərdə əkiblər.

Bu aksiya şəhər əhalisi tərəfindən yüksək qarşılanıb. Yaxın günlərdə Yeni il ərəfəsində növbəti belə tədbirlərin keçirilməsi nəzərdə tutulub. İri ticarət mərkəzlərinin əməkdaşları bu cür tədbirlərdə iştirak edəcəklərini bildiriblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 25 dekabr (№285).- S.20.